# Azərbaycanda 1920-1950-ci illər repressiyaları



Elşən Mirişli

Gəncə şəhəri, tarixçi



## II Yazı

## Aprel işğalından sonra Azərbaycanda idarəçilik

*1920-ci ildə Hümmət,Ədalət və Rusiya Sosial Demokrat Fəhlə partiyasının (RSDFP) Bakı komitəsi Azərbaycan Kommunist Partiyası adı altında birləşdilər."Bakı Komunası" kimi tanınan hökumətdə cəmi üç Azərbaycan türkü təmsil olunmuşdu.Məşədi Əzizbəyov Bakı quberniyasının komissarı,Mirhəsən Vəzirov torpaq komissarı,Nəriman Nərimanov şəhər təsərrüfatı komissarı idi.Nəriman Nərimanov Şaumyanın qurduğu oyuncaq hökumətdə 27-ci Bakı komissarı idi.Lakin onun taleyinə digər Şaumyançılar kimi Ağcaqum çölündə güllələnmək yazılmamışdı.Sovet dövründə yazılanlara və sonradan Nərimanovla bağlı araşdırma aparan tarixçilərə inansaq,1918-ci ilin iyununda xəstələnir və Bakını tərk edərək Həştərxana gedir.Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il 27 apreldə ruslar tərəfindən işğal olunan zaman 27 Bakı komissarı kimi fəaliyyəti yüksək qiymətləndirilir və işğal olunan ölkəyə vali təyn edilir.Nəriman Nərimanovun 20 noyabr 1920-ci il tarixli əmrinin mətnində deyilir: "Müzəffər XI Ordunun və Azərbaycan Sovet Sosialist Respublikasının dəmir yollarının mühafizəsi və müdafiəsi qüvvələrinin rəisi,hərbi kommisar yoldaş Efremov Mixail Qriqoreviç 1920-ci il aprelin 27-də Bakının tutulması və Müsavat hökumətinin ürəyinə ildırımsürətli sarsıdıcı zərbə vurulmasına görə Azərbaycan Sovet Sosialist Respublikasının "Qırmızı bayraq " ordeni ilə təltif edilsin." Yoldaş Efremova "Qırmızı bayraq" ordeninin 1N-li nişanı verilir.*

1920-ci il Gəncə üsyanını qan gölündə boğduğuna görə Efremov 1-ci dəfə Nəriman Nərimanov tərəfindən "Qırmızı Bayraq" ordeni ilə təltif olunmuşdu.Bu Efremov Mixail Qriqoreviçin 2-ci "Qırmızı Bayraq" ordeni idi.Bu münasibətlə Nərimanov general Efremova brliyant daş-qaşla bəzədilmiş qılıncı şəxsən hədiyyə edib.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1-ci sədri 28 aprel 1920 -7 may 1922 Nəriman Nərimanov idi.1mart 1922-15 yanvar 1923 Zaqafqaziya Sosialist Federativ Respublikası İttifaq Sovetinin sədri,30 dekabr 1922-19 mart 1925 SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin ZSFSR-dən 1-ci sədri idi1922-ci ildə SSRİ yarandıqdan sonra SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri seçilir.19 mart 1925-ci ildə 54 yaşında Moskvada bolşevik silahdaşları tərəfindən zəhərlənərək öldürülür.1920-ci illərin ikinci yarısında Azərbaycana rəhbərlik uğrunda iki qrup arasında mübarizə başladı.Bir tərəfdən Ruhulla Axundov,Həbib Cəbiyev,Hüseyn Rəhmanov,Müzəffər Nərimanov (Nəriman Nərimanovun əmisi nəvəsi),Q.Fərəczadə digər tərəfdə isə Qəzənfər Musabəyov,Sultanməcid Əfəndiyev,M.Qarayev və Yusif Qasımov.

Sergey Kirov öldürüldükdən sonra 1926-cı ildən 1929-cu ilə qədər Azərbaycan Kommunist Partiyasının birinci katibi vəzifəsinin icrası Əliheydər Qarayev,Hüseynbala Ağaverdiyev (1927-ci ildən onun vəzifəsini Yusif Qasımov icra edirdi,Levon Mirzoyandan ibarət katibliyə həvalə edilmişdi.Azərbaycandakı partiya rəhbərliyinin özbaşınalığı,qohumbazlığı haqqında məlumatlandırılan Stalin 1929-cu ildə partiya rəhbərliyinin təmizlənməsinə başladı.Əliheydər Qarayev,Levon Mirzoyan,Yusif Qasımov və digərləri öz vəzifələrindən qovuldular.1929-cu ilin sentyabr ayından 1930-cu ilin fevral ayınadək Azərbaycanda idarəetmə səlahiyyəti olan rəhbərlik mövcud deyildi.Bakıda aparıcı hümmətçiləri aradan götürdükdən sonra Stalin Levon Mirzoyan və Əliheydər Qarayevin tərəfdarı olub bundan istifadə edən rayon komitələrinin katiblərinin dəyişdirilməsinə başlayır.Bu üsulla qarışıq şəxsi əlaqələr şəbəkəsi dağıdıldı.Azərbaycanın növbəti partiya təşkilatlarının rəhbərləri Nikolay Gikalo və Vladimir Polonskinin də dövründə partiya daxili intriqa və çəkişmələr davam edirdi.Nəticədə Stalin 1933-cü ildə Vladimir Polonskinin yerinə Azərbaycana rəhbərlik etmək üçün Mircəfər Bağırovu təyin etdi.Bununla da Bağırovun 20 illik hakimiyyət dövrü başlandı.

## Azərbaycanda "təmizləmə"

Konkret Azərbaycanda ümumilikdə 1930-1940 və 1950-ci illərin əvvəllərində 70 min adam repressiya edilib ki,bunun da 29 min nəfəri ziyalıdır.Təkcə 1937-ci ildə 16 Azərbaycan generalı qətlə yetirilib. Azərbaycanın Kazaxıstandakı səfirliyinin məlumatına görə,Stalin repressiyaları illərində Kazaxıstanda 150 min Azərbaycan türkü öldürülüb və bunlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnib.

## 1930-1936-cı illər arası siyasi repressiyalar

*1 dekabr 1934-cü ildə Leninqradda yerləşən Smolnı sarayında işsiz Leonid Nikolayev ÜKP-nin Leninqrad diyar komitəsinin rəhbəri Sergey Kirovu güllələyir.Bu qətl hadisəsi 1920-1930-cu illərin müxalif liderlərinin aradan götürülməsi üçün istifadə olundu.Stalin qətldə Qriqoriy Zinovyev və Lev Kamenevi günahlandırdı.Xalq Daxili İşlər Komissarlığından olan etirazlara baxmayaraq o qətldə Stalin "Zinovyev izi"-nin araşdırılmasını göstəriş verdi.*

1936-cı ilin yazında Bakıda humanitar elmlər sahəsində işləyən bir qrup keçmiş trotskiçilər həbs olundular.Sonra isə "millətçilər" həbsə məruz qaldılar.İlk olaraq o dövrdə respublika rəhbəri olan Mircəfər Bağırovla düşmən münasibətlərində olan alban əsilli publisist Əhməd Triniç həbs olundu.Bağırov həmin ilin aprelində Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin Bürosunun iclasında 1920-ci ildə aprel ayının 27-də Triniçin müsavat parlamentinin silahlı müdafiəsi üçün etdiyi xahişi özündə əks etdirən tapılmış və ya uydurulmuş məktubu oxudu.Nəticədə Triniçi partiyadan kənarlaşdırıb həbs etdilər,istintaq zamanı isə o düymə udaraq özünü öldürdü.

## Respublika rəhbərlərinə və partiya üzvlərinə qarşı repressiyalar

*Respublika rəhbərlərinə və partiya üzvlərinə qarşı repressiyaların 1937-ci liin yayında yayın əvvəlindən 1938-ci ilin payızına qədər Azərbaycan faktiki olaraq idarəetməsiz qalmışdı.Təkcə 1937-ci ildə 22 xalq komissarı,49 rayon komitəsi katibi,29 rayon icraiyyə komitəsinin sədri həbs olunmuşdu.*

## SSRİ-də qəbul edilən repatriasiya haqqında qanun

SSRİ-də 2 dəfə repatriasiya haqqında qərar qəbul edilib.1946-cı ildə və 1961-ci ildə.

1946-cı il qərarı 1946-1949-cu illəri əhatə edir və bu qərar yaxşı öyrənilib.1946-cı il qərarına görə Moskva 360-400 min ermənini xarici ölkələrdən Sovet Ermənistanına gətirib Türkiyədən torpaq qoparmaq istəyirdi.Məsələ belə qoyulurdu ki,bəs ermənilər xarici ölkələrdən öz vətənlərinə qayıdır,lakin onların yaşamağa yeri yoxdur.Ona görə Stalin tələb edirdi ki,Kars,Ərdahan,Artvin (toplam 26 min.kv.km ərazi) Sovet İttifaqına qaytarılmalı və onun (20,5 min kv.km) Ermənistan SSR-ə verilməlidir.Amma Qərb Stalinin Türkiyədən torpaq qoparmaq niyyətlərini başa düşdü və onun əleyhinə oldu.

Türkiyədən torpaq almaq mümkün olmayanda SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il qərarı ilə 1948-1953-cü illərdə 140 min Azərbaycan türkü Ermənistandakı öz dədə-baba yurdlarından köçürüldülər.Qərarın birinci variantında bunun erməni repatrianları yaşayış evləri və həyətyanı torpaq sahələri ilə təmin etmək məqsədilə edildiyi yazılır.Sonra Kür-Araz ovalığı məsələsini uydurdular.

1946-cı il repatriasiyası ilə bağlı ermənilər yaşayan ölkələrə əsasən ermənilərdən ibarət Sovet təhlükəsizlik orqanlarının işçiləri göndərilmişdi.Onlar təbliğat aparmalı və erməniləri vətənə dönməyə təşviq etməli idilər.Deməli, bu qrupların işi Sovet İttifaqının cənnət olduğunu xaricdəki ermənilərə inandırmaq idi.Eyni zamanda Ermənistan MK və DTK Dəməşq və Tehranı ASALA-nın müdafiəçilərini və Türkiyənin düşmənlərini müdafiə edirdi.

Birinci repatriasiya zamanı (1946-1949) toplam 92 min erməni xaricdən Sovet Ermənistanına gəldi.Gələnlər Manuşlar, Cülyettalar,Vardanlar,Zavenlər Azərbaycan türklərinin torpaqlarında və evlərində yerləşdirildilər.Sovetlər 360-400 min ermənini xaricdən Ermənistana gətirə bilmədilər.

Sov.İKP MK Katibliyi 1966-cı ilin fevral ayının 8-də repatriasiya qanununa yenidən baxıb erməni repatrianlara verilən güzəştləri ləğv etdi.

## Repressiyaların daha da güclənməsi

Repressiyalar NKVD-nin rəhbəriHenrix Yaqoda dövründə başladılmışdı,lakin əsas öldürücü dövrü Nikolay Yejovun dövründə,1936-cı ilin sentyabr ayından,1938-ci ilin avqust ayına qədər davam etmişdi və tarixə Yejovşina kimi düşmüşdü.

## Nikolay Yejov

1895-ci ildə Peterburqda (indiki Sankt-Peterburqda) anadan olan Nikolay İvanoviç Yejov 14 yaşından başlayaraq,müxtəlif zavodlarda fəhləlik etməyə başladı.1917-ci ildə bolşeviklərə qoşulan Yejov özünü necə deyərlər,gözə soxmaqla vəzifə kürsüsündə sürətlə irəliləməyə başladı.Vətəndaş müharibəsi illərində Yejov hərbi hissələrdə komissar vəzifəsində işləyirdi.Müharibədən sonra, 1920-ci ildə o,Türküstana gedir və burada bir sıra vəzifələrdə çalışır.Əvvəlcə,Semipalatinsk vilayətində,sonra isə Kazaxıstan ölkə partiya komitəsinin katibi vəzifəsində işləyir.O, orta və ali təhsil almasa da Stalinə sədaqəti ilə diqqəti cəlb edirdi.1927-ci ildə Stalinə sədaqətinə görə, onu Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasına (ÜKP) məsul vəzifəyə irəli çəkdilər.Kollektivləşmə dövründə Yejov Stalinə sədaqətini əsl cəlladlara xas tərzdə nümayiş etdirməyə başladı.1929-1930-cu illərdə o,SSRİ Torpaq Komitəsi sədrinin müavini vəzifəsinə irəli çəkildi. Burada az-çox imkanı olan bütün kəndliləri qolçomaq elan etdi və onlara qarşı sərt tədbirlər görülməsi barədə müvafiq orqanlar qarşısında məsələ qaldırdı.Yejov 1930-1934-cü illərdə ÜKP-nin kadrlar şöbəsində işlədi.Həmin dövrdə o,Stalinin kadr siyasətini həll edən əsas fiqurlardan biri sayılırdı.Bu vəzifədə də cəlladlığını ən sərt şəkildə həyata keçirməyə başladı.Yejov bu vəzifədə çalışarkən Stalinə sədaqətinə şübhə etdiyi köhnə,sınanmış kadrları bir-bir aradangötürməyə başladı.O dövrdə məşhur çekistlər kimi kimi tanınan Prokofyevi,Luryeni,Ostrovskini,Feldman,baron Stayqeri və digərlərini ya sürgünə göndərdi,ya da şəxsən özü onları güllələdi.Qısa müddətdə Yejov 325 çekisti"vətənə xəyanət" üstündə məhv etdi.Halbuki onların böyük əksəriyyətinin heç bir günahı yox idi.26 sentyabr 1936-cı ildə ildə Stalin Henrix Yaqodanı Xalq daxili işlər komissarı vəzifəsindən azad edərək,onun yerinə "partiya qarşısındakı müstəsna xidnətlərinə görə" Nikolay Yejovu təyin etdi.

*Henrix Yaqodanın tabeliyində olan bütün sahələr: həm Dövlət Təhlükəsizliyi,həm milis,həm də yanğından mühafizə və şosse yolları idarələri kimi köməkçi xidmətlər Yejovun tabeliyinə keçdi.Yeni,kifayət qədər yüksək vəzifəyə təyin edilməsi Yejovu daha ağır cinayətlər törətməyə şirniklendirdi.28 yanvar 1937-ci ildə Yejova SSRİ dövlət təhlükəsizliyi generalı rütbəsi verildi (sonradan,24 yanvar1941-ci ildə həmin rütbədən məhrum edildi).1937-ci ildə Orconikidze vilayətinin Sulimovo şəhəri Stalinin əmri ilə Yejov –Çerkask adlandırıldı.1938-ci ildə Yejovun göstərişi ilə Tatarıstanda təmizləmə əməliyyatına başlanıldı. Belə ki,təkcə 1937-ci ildə bir gündə Yejovun əmri ilə 3170 yüksək vəzifə tutan adam güllələnmişdi.Onlar arasında SSRİ-yə sədaqəti ilə tanınan onlarla çekist,general var idi.Yejov Stalinin baş cəlladı idi.Onun qurbanları arasında sadə adamlar-çobanlar belə var idi.Heç nədən xəbəri olmayan çox süd versin deyə mahnı oxuyan kazax çobanıYejov xalq düşməni,elan edərək güllələdir.Bundan xəbər tutan Stalin "Çobanı antisovet adlandıran adam ölünü də xalq düşməni çıxara bilər"-deyir və susur.Stalin 1938-ci ildə baş cəllad Yejovu başqa vəzifəyə keçirilməsi adı altında onu daxili işlər komissarı vəzifəsindən azad edir.Onun yerinə digər digər cəlladı Beriya təyin olundu.1939-cu ildə Stalinin əmri ilə Yejov həbs edildi.Repressiyalar isə insanları qorxu içində saxlamaq üçün davam etdirildi.*

(ardı var)